# Təhsilə qayğı sabaha qayğıdır



***Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri də təhsilin inkişafıdır. Ölkəmizdə təhsil sahəsinin maddi-texniki bazasının durmadan möhkəmləndirilməsi işıqlı gələcəyə qayğıkeş baxış nümunəsidir. Hazırda respublikamızın hər yerində yeni tədris ilinə ciddi hazırlıq işləri aparılır. Prezident İlham Əliyev sentyabrın 3-də Sumqayıta səfəri çərçivəsində gənclik şəhərində Heydər Əliyev Fondu tərəfindən yeni tikilmiş 20 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub.***

Bundan bir qədər əvvəl – avqystun 26-da isə Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusunun, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasının açılışlarında iştirak edib. Bu, yeni təlim və tərbiyə müəssisələrində tezliklə təhsil alacaq uşaqları, burada çalışan pedaqoqları, əlbəttə, çox sevindirib.

Azərbaycan dövləti insan kapitalının daha da inkişaf etdirilməsini, gənc nəslin bilikli və savadlı, yüksək intellektli olmasını daim diqqətdə saxlayır. Hər il respublikada müasir standartlara cavab verən onlarla məktəb binası inşa olunur və ya əsaslı təmir olunaraq istifadəyə verilir. Pedaqoji sahədə çalışanların əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, işə qəbulda şəffaflığın təmin olunması, müəllimlərin sosial rifah halının yaxşılaşdırılması istiqamətində zəruri addımlar atılır. Dövləti tədbirlərlə bərabər, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələri uğurla həyata keçirilir.

Vətən müharibəsində təhsil işçiləri də igidliklər göstəriblər, onların arasında şəhidlik zirvəsinə ucalanlar, yaralananlar da var. Həmin kateqoriyadan olan insanların hərtərəfli qayğı ilə əhatə olunublar. Yeni mənzillərin verilməsi, qazilərin işlə ilk növbədə təmin edilməsi bu qəbildən olan tədbirlərdəndir. Bu günlərdə YAŞAT Fondu tərəfindən şəhidlərimizin orta məktəbdə təhsil alan övladları üçün start verilən xüsusi layihə çərçivəsində yeni tədris ilinin başlanması ilə əlaqədar onların hamısına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırılır. Əlavə olaraq ibtidai siniflər üçün “Lego” oyun qutusu, 5-8-ci siniflər üçün “Puzzle”, 9-11-ci siniflər üçün şahmat dəsti daxil edilib. Hər bir hədiyyə qutusunda bir illik müddət üçün məktəbli ləvazimatları yer alıb.

İllərdən bəri çalışdığım Həmkarlar İttifaqları Konfederasiyası da müasir dövrün inkişaf meyilləri ilə bağlı çağırışlara hazırlıq əzmi nümayiş etdirir, pedaqoji işçilərin, veteran müəllimlərin sosial müdafiəsini, iastrahəti və müalicəsinin təşkilini layiqincə həyata keçirir. Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının rayon komitələrinin, o cümlədən, bizim Cəlilabad təşkilatının aztəminatlı ailələrdən olan həmkarlar ittifaqı üzvlərinə və sosial qayğıya ehtiyacı olan ailələrə bütün bayramlarda və əlamətdar günlərdə, xüsusilə də COVID-19 pandemiyanın yaratdığı çətinliklərlə əlaqədar maddi yardımlar etməsi, onlara ərzaq bağlamaları verməsi bu sıradandır. Vətənin bütövlüyü uğrunda döyüşlədə canlarından keçmiş şəhid-müəllim və tələbələrin ailələrinə, yaralı və qazilərə də həmkarlar ittifaqları tərəfindən lazımi qayğı göstərilir. Bizə böyük qələbə sevinci yaşadanlara ehtiram və qayğı hər kəsin şərəfli borcudur.

Bir daha xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilə, təhsil işçilərinə göstərdikləri daimi qayğı hər kəs üçün əsl örnəkdir. Bu, yeni dərs ili ərəfəsində həm təhsil işçilərinin, həm də sahə həmkarlar ittifaqları təşkilatlarında çalışanlara böyük stimul verir və bizi daha məhsuldar, daha səmərəli çalışmağa sövq edir.

***Nəbi İSKƏNDƏROV,***
***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Cəlilabad rayon Komitəsinin sədri***

Xalq qəzeti .- 2021.- 7 sentyabr.- S.4.